Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi

# Aylıq Bülleten Mart 2020

## İNKLÜZİV TƏHSİLDƏ DİFERENSIALLAŞDIRMA

Şagirdlərin fərqli xüsusiyyətlərinə uyğun olaraq təlimin daha yaxşı aparılması məqsədilə dərslərin diferensiallaşdırılması inklüziv təh-sildə vacib məqamlardan biridir. Diferensial-laşdırma müəllimin hər uşağın tamamilə eyni olduğunu zənn edərək bütün sinfə daha ənənəvi şəkildə tədris etməsinin əvəzinə konkret şagirdin və ya kiçik qrupların təlim ehtiyaclarına diqqət yetirməsidir.

Tədris zamanı şagirdlərin ehtiyaclarının səmərəli və düzgün qiymətləndirilməsi təlimin diferensiallaşdırılması üçün imkan yaradır. Formal qiymətləndirmə ilə yanaşı şagirdlərin gündəlik fəaliyyətləri üzrə müəllimin şəxsi müşahidələri də diferensiallaşdırmanın hansı formada aparılması üçün əsas götürülə bilər. Şagirdlərin ehtiyaclarını bilmədən təlimin diferensiallaşdırılması heç bir nəticə vəd etmir.

İnklüziv təhsildə diferensiallaşdırma dedikdə, əsas 3 məqamı vurğulamaq lazımdır:

- Differensial məzmun
- Differensial fəaliyyət
- Differensial məhsul

Diferensial məzmun dedikdə müxtəlif çətinlik səviyyəsində olan öyrədici materiallardan istifadə nəzərdə tutulur. Əgər sinifdə əlavə izaha ehtiyacı olan uşaq varsa, ona yenidən dərs keçmək, əlavə mətn, səs qeydiyyatı aparatları, poster və videolardan istifadə edilməsi də diferensial məzmuna aid edilir.

Diferensial fəaliyyət isə müxtəlif çətinlik səviyyələrində olan təlim fəaliyyətlərinin icra olunmasını ehtiva edir. Bu zaman müəllimlər uşaqların fərqli maraqlarına əsaslanan müxtəlif variantlar təmin etməklə fəaliyyəti fərqləndirə bilər.

Müəllimlərin dərs zamanı əsas təlim hədəfləri üçün məhsulların hazırlanmasında şagirdlərin bir-birinə kömək etmələrinə icazə verməsi, şagirdləri öyrəndiklərini fərqli yollarla ifadə etməyə təşviq etməsi, məhsulları hazırlamaqda müxtəlif növ resursların istifadəsini təmin etməsi və müxtəlif qiymətləndirmə metodlarından geniş şəkildə istifadə etməsi diferensial məhsullara aid edilir.





## YARDIMÇI CİHAZLARIN İNKLÜZİV TƏHSİLDƏ ƏHƏMİYYƏTİ

Dərs planlaşdırmasının mühüm hissəsi dərsdə hansı vəsait və vasitələrdən istifadə ediləcəyini müəyyənləşdirməkdir. Bu vasitələr dərsin məqsədlərinə uyğun və sinifdə uşaqlar üçün əlçatan olmalıdır. Bəzi əlilliyi olan uşaqlara isə yardımçı texnologiya vasitəsilə xüsusi dəstəyin göstərilməsinə ehtiyac yarana bilər. Yardımçı texnologiya təhsildə əlilliyi olan uşaqların təlimdə fəal iştirakına mane olan amilləri aradan qaldırmağa kömək edir. Məsələn, görmə əlilliyi olan uşaqlar üçün elektron lövhələr, kompüter və tabletlər geniş imkanlar təqdim edir. Eşitmə əlilliyi olan uşaqlar üçün isə nitqi mətnə çevirən funksiyaya malik kompüterlərdən istifadə edilə bilər. Əgər sinfinizdə fiziki əlilliyi olan uşaqlar varsa, bu zaman uşaqların kompüterdən istifadə-sinə yardımçı olması üçün hazırlanmış alternativ giriş cihazları təmin edilə bilər (məsələn, sensor ekranlar, dəyişdirilmiş klaviatura, əyləncəli idarəedici çubuqlar, və s.). Yazmağı asanlaşdıra bilən qələm tutacaqları və ya erqonomik dizaynlı qələmlər təmin edilməsi ilə əlilliyi olan uşaqların təhsil prosesi asanlaşdırıla bilər.

Yardımçı cihazlar əqli əlilliyi olan uşaqlara da dərs zamanı müsbət təsir göstərə bilər. Bunun üçün müəllimlər, uşağa mətni oxumaq yerinə audio qeydlərə qulaq asmağa icazə verməli, dərsi yalnız oxu kitabları vasitəsilə deyil, audio kitablar, kinolar və digər media alətləri vasitəsilə keçməli, həmçinin ehtiyac olduğu halda tapşırıqlar üçün elektron orfoqrafiya yoxlayan vasitələrdən istifadə etməlidirlər.

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi



# Müəllim təcrübəsi:

# Aynur Mövlanova

*Quba rayonu Əfqan Vəliyev adına Rustov kənd tam orta məktəbinin ibtidai sinif müəlllimi*

“Müəllimlik ən şərəfli peşədir!” İllər keçdikcə, müəllimlik həyatımda bu fikrə tam əmin oldum. 21 ildir Quba rayonu Ə.Vəliyev adına Rustov kənd tam orta məktəbində ibtidai sinif müəllimi işləyirəm. Bu müddət ərzində müxtəlif bacarıq, həvəs və xarakterə malik uşaqlarla işləmişəm. Hər bir balaca fidanın mənim üçün xüsusi yeri var. Onların kiçik əllərindən tutub yazmağı böyük həvəslə öyrədirəm. Dünyagörüşlərinin artması üçün var qüvvəmlə çalışıram. Bu illər ərzində dərs dediyim siniflərdə əlilliyi olan şagirdlər də olub. Lakin mən onları digər şagirdlərdən ayırmayıb, onların da bilik əldə etmələrinə çalışmışam və buna nail olmuşam.

2019-cu ilin iyun ayında "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində inkluziv təhsillə bağlı təlimdə iştirak etdim və təlimdə bir çox yeni biliklərlə yanaşı “universal öyrənmə dizaynı” (UÖD) anlayışı ilə yaxından tanış oldum. UÖD resursların, təlim yanaşmalarının və muhitin daha faydalı, rəngarəng və maraqlı qurul-ması üçün çoxsaylı ideyalar təmin edir.

UÖD ideyasından ilham alaraq “Sehirli qutu” adlanan resurs yaratdım. “Sehirli qutu”da riyaziyyat fənninin daha rahat öyrədilməsi və qavranılması üçün lazım olan vəsaitlər toplanılmışdır ki, bunun da əsas məqsədi uşaqların kiçik motorikasının inkişaf etdirilməsidir.

### Sehirli qutuda nələr var?

Rəqəmlər, həndəsi fiqurlar, riyazi əməllər, müqayisə işarələri, fiqurların açılışı, kiçik və böyük top, saat modeli, qulaqcıqlar

### Sehirli qutu nəyə xidmət edir?

Sehirli qutuda olan rəqəmlər 1-dən 10-a qədər olan ədədlərdir. Bunlar müəllim tərəfindən hazırlana bilən vəsaitdir. Rəngli kağız istənilən formada kəsilir. İki hissəyə bölünür. Bir tərəfində saplardan hazırlanmış pon-pon (rəqəmə görə) yapışdırılır. İkinci hissəsinə isə rəqəm, qabarıq şəklində yapış-dırılır. Bu, əlilliyi olan və əlilliyi olmayan şagirdin toxunaraq hissetmə ilə öyrənməsinə zəmin yaradır. Pon-ponlara toxunaraq onların sayını müəyyən edir, ikinci hissədə olan ədədi tapır. Ədədə toxunaraq isə onun yazılış formasını təyin edir. Bu rəqəmləri hazırlamaq üçün müxtəlif məmulatlardan istifadə etmək olar. Sehirli qutudakı rəqəmlərin bir hissəsi kibrit çöpündən, bir hissəsi noxud parçalarından, bir hissəsi xırda daşlardan hazırlana bilər ki, bu da şagirdlərin kiçik motorikasının inkişafına təkan verir.

Məsələn, müəllim şagirdlərlə “Mən kiməm?” adlı bir oyun keçirə bilər. Bu oyun zamanı bütün uşaqlar qulaqcıqdan istifadə edir. Hər kəs hazır olandan sonra sual səslənir.

- Mən tək rəqəməm, qamətim düz, hamıdan əvvəl gəlirəm, 0-dan solda dursam, iki rəqəmli ədəd alınar , 0-dan sağda dursam azalaram. Mən kiməm?
- Şagirdlər Şagirdlər sual səslənəndən sonra əlamətlərinə görə həmin ədədi sehirli qutuda axtarırlar və hər şagird tapdığı rəqəmi qutudan çıxarıb yuxarı qaldırır.
- Hamı rəqəmini nümayiş etdirəndən sonra monitorda 1 rəqəmi nümayiş olunur.

Burada qulaqcıqlardan istifadənin ən böyük əhəmiyyəti əlilliyi olan və olmayan şagirdlər arasında heç bir fərqin qoyulmamasıdır. Bu metod həm də bütün şagirdlərin məntiqi təfəkkürünün yoxlanmasına və şagirdlərin dərsdə birgə fəal iştirakına imkan yaradır.

## “VALİDEYNLƏRİN İNKLÜZIV TƏHSİLDƏ ROLU” MÖVZUSUNDA SEMİNAR KEÇİRİLİB



Avropa İttifaqının maliyyə dəstəyi ilə “Regional İnkişaf” İctimai Birliyi tərəfindən icra olunan “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması” layihəsi çərçivəsində 24-28 fevral 2020-ci il tarixlərində valideynlər üçün inklüziv təhsil mövzusunda maarifləndirici seminarlar təşkil olunub.

Əsas məqsədi valideynləri inklüziv təhsil və əlillik məsələləri ilə bağlı məlumatlandırmaq olan seminar zamanı valideynlərin inklüziv təhsildə rolu, müəllim-valideyn əməkdaşlığı və onun faydaları barədə danışılıb. Bununla yanaşı əlilliyi olan şəxslərə qarşı cəmiyyətdə mövcud olan stereotiplərin aradan qaldırılmasında valideynlərin aktiv mövqeyinin təşviq olunması üzrə müzakirələr aparılıb. Qeyd edək ki, Bakı, Şəki, Şamaxı, Ağcabədi, Quba və Cəlilabad rayonlarında keçirilən seminarda 200-dən çox əlilliyi olan uşaqların valideynləri iştirak edib.

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə “Regional İnkişaf” İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi

# MÜƏLLİMLƏR ÜÇÜN TÖVSİYYƏ

Bülletendə təqdim olunan yeni rubrikada müəllimlərin dərs prosesi zamanı istifadə edə biləcəyi praktik tövsiyyələr yer alıb. Disleksiyası olan uşaqlar oxuyub-yazma bacarıqlarına, bəzən də hesablama bacarıqlarına təsir göstərən öyrənmə çətinliyi ilə üzləşirlər. Daimi zəiflik qısa, davamlı və işçi yaddaşında emal sürətində, ardıcıllıq bacarıqlarında, eşitmə və/və ya görmə duyğusunda, danışıq dili və motor bacarıqlarında müəyyən edilə bilər.



## Disleksiyalı uşaqların təlimi üzrə müəllimlər üçün praktiki tövsiyələr:




**Mənbə:**

*Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti (Xüsusi kitabça 3)*

https://www.inkluzivtehsil.az/book/17.html

- Müəllimlər, təhsildə, inkişafda və iştirakda maneələrlə üzləşən şagirdlər daxil olmaqla, bütün uşaqların özlərini sinifdə dəyərli və vacib hesab etmələrini təmin etməlidirlər.
- Əllərindən gələni etməkləri üçün şagirdləri dəstəkləyin və motivasiya edin. İntellek-tual stimullaşdırma üçün ümid verin (uşaqları layiq olduğu səviyyədə qiymətləndirin), lakin yazılı cavab və oxu bacarıqları ilə bağlı məqbul gözləntiləriniz olsun.
- Nəyisə bir neçə dəfə və müxtəlif formalarda izah edin – bəzən bütün sinif, bəzən qrup (bundan bir çoxu yararlanacaq) və həmçinin disleksiyalı şagird üçün fərdi olaraq izah edin.
- Təlimat verərkən hərtərəfli düşünün, bir neçə dəqiq sözdən istifadə edin və sadə cümlələr qurun. Sözləri mənimsəmək üçün vaxt verin. Əmin olun ki, uşaqlar dedik-lərinizi başa düşdülər və onları sizə və ya sinif yoldaşına izah etməyi xahiş edin.
- Çalışmaları sistematik yerinə yetirmək üçün təlimat verin. Disleksiyalı uşaqlara, digər şagirdlərin köməyinizə ehtiyac olmadan avtomatik öyrənə bildiklərini öyrətmək üçün sizin koməyiniz lazım olacaq (bu təlimdə çətinlik çəkən digər şagirdlərə də faydalı olacaq). Bura aiddir: öz masasını yığışdırmaq; kitabları yerinə qoymaq; düzgün geyinmək; itirdiklərini tapmağı yadlarına salmaq; məktəb çantasını yığmaq; ayaqqabı bağlarını bağlamaq. Sizin bir müəllim və valideyn olaraq anlamanız vacibdir ki, bu vərdişləri sakit, sistematik və davamlı olaraq öyrətməyə vaxt lazımdır.
- Çalışın şagirdlə birgə yazılı tapşırıqları dəyərləndirin. Mümkünsə uşağın düzgün yetirdiyinə diqqətinizi yönəldin (məzmun, orfoqrafi ya, qrammatika, struktur və cümlə). Uşağı səhvləri düzəltməklə yükləməkdənsə, əsas səhflərdən bir neçəsini seçib diqqətini ona yönləndirin.
- Şagird özü olmadan yazısını yoxlayanda (qiymətləndirəndə), səhvlər və tövsiyələr üçün iki rəng qələmdən istifadə edin (biri məzmun digəri isə orfoqrafi ya və təqdimat üçün). Yalnız xüsusi tədris olunmuş orfoqrafik səhvlər düzəldilməlidir.